

# İLHAM ƏLİYEVİN UĞUR FORMULU

## Düşünülmüş strategiya, düzgün taktika

**Respublikamızın müasir tarixində yeni mərhələnin başlanğıcı olan 2024-cü ilin növbədənkənar prezident seçkilərində xalqımız cənab İlham Əliyevə etimad göstərərək, Azərbaycanı qalib dövlətə çevirən, tarixinin ən qüdrətli səviyyəsinə yüksəldən, hər bir vətəndaşa zəfər sevinci yaşadan və gələcək yüksək nailiyyətlərimizə etibarlı zəmin yaradan siyasi kursun davamına səs verdi. Bu seçki Azərbaycan vətəndaşlarının Heydər Əliyev yoluna, sabitlik, tərəqqi və rifah kursuna sədaqətinin növbəti təcəssümünə çevrildi.**



# Azərbaycanı zirvələrə yüksəldən rəhbər

### Milli maraqları inamla təmin edən siyasi fəaliyyət nümunəsi

Bu gün uğurları ilə dünyaya səs salan, regionda və dünyada yüksək nüfuz sahibi olan, torpaqlarını döyüş yolu ilə işğaldan azad edən ölkəmiz hər bir azərbaycanlının qürur mənbəyidir. Müasir müstəqil Azərbaycan bu səviyyəyə hamar yollarla çatmamışdır, hətta qanlar bahasına əldə edilmiş müstəqilliyimiz bir vaxtlar itirilmək təhlükəsində qalmışdır. Lakin tarixin müxtəlif dönəmlərində ayrı-ayrı problemlər və situasiyalarla qarşılaşmasına baxmayaraq, Azərbaycan xalqı əzmkarlıq və vahidlik nümayiş etdirərək dövlətçilik ənənələrimizin əbədiliyini, müstəqil Azərbaycanın tərəqqisini təmin etmişdir.

Bütün bu tarixi və misilsiz nailiyyətlərin əldə edilməsində lider faktoru əvəzolunmaz rol oynamışdır. Bu baxımdan bugünkü qüdrətli Azərbaycandan bəhs edərkən biz xalqımızın Ümummilli Lideri Heydər Əliyevi böyük ehtiramla anır, müasir Azərbaycanın banisi olan bu böyük şəxsiyyətin dövlətimiz və xalqımız qarşısındakı tarixi xidmətlərini böyük fəxrlə xatırlayırıq. Məhz Heydər Əliyev tərəfindən görülən böyük işlərin, onun həyata keçirdiyi xilaskarlıq və quruculuq missiyalarının nəticəsidir ki, xalqımız müstəqil və suveren dövlətdə yaşamaq hüququna sahibdir. Azərbaycanın dövlət olaraq yüksəlişinin əsasında Heydər Əliyevin müəyyən etdiyi mükəmməl inkişaf strategiyası dayanır.

Ümummilli Liderimiz Heydər Əliyev müasir Azərbaycan dövlətini yaratmaqla yanaşı, xalqımız qarşısında daha bir əvəzsiz xidmət göstərmiş, milli dövlətçilik məktəbini formalaşdıraraq, ölkəmizin gələcək inkişafını təmin edəcək layiqli siyasi varis yetişdirmişdir. Bu baxımdan Heydər Əliyevin 2003-cü ilin prezident seçkiləri ərəfəsində Azərbaycan xalqına müraciətində yer alan "İlham Əliyev yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" sözləri bugünkü qüdrətli Azərbaycan dövlətinin uğurlarının fonunda Ümummilli Liderimizin nə qədər böyük və uzaqgörən şəxsiyyət olduğunu təsdiq edir. Azərbaycanın gələcək inkişaf yolunun manifestinə çevrilən bu fikirlər Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin 21 ildən artıqdır davam edən qürurverici inkişaf yolunun ideya əsaslarından biri kimi özünü göstərir.

Ötən bu tarix Azərbaycanın müasir dövlətçiliyinə həqiqətən ən möhtəşəm nailiyyətlərlə həkk olunub. Bu illər ərzində cənab İlham Əliyev verdiyi vədləri layiqincə yerinə yetirib, Azərbaycanın inkişafı, dünya birliyində mühüm yer tutması üçün qətiyyətli, milli maraqlarımızı inamla təmin edən siyasi fəaliyyət nümunəsi ortaya qoyub.

### Möhtəşəm uğurlar dövrü

Prezident İlham Əliyevin respublikamıza rəhbərliyinin geridə qalan illərinə qısa ekskurs etsək, gözlərimizin önündə yalnız və yalnız yüksələn, öz hədəflərinə qətiyyətlə çatan Azərbaycan canlanacaq. Bu dövrün hər bir ilində Azərbaycan irəli gedib, heç bir qlobal siyasi-iqtisadi kataklizm respublikamızı öz yolundan saxlaya, ləngidə, ya döndərə bilməyib və qarşıya qoyulan bütün məqsədlər uğurla reallaşıb. Bu dövrdə respublikamızın iqtisadi sistemində baş verən köklü dəyişikliklər, iqtisadiyyatın diversifikasiyasına nail olunması, qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi, regionların iqtisadi potensialının hərəkətə gətirilməsi cənab İlham Əliyevin Prezident kimi fəaliyyətinin əlamətdar göstəriciləridir. Bu illərdə Azərbaycan iqtisadiyyatı real ifadədə 3,4 dəfədən çox böyüyüb, illik ümumi daxili məhsul istehsalı 100 milyard manatı ötüb. Artıq 2025-ci ildən müstəqilliyimizin tarixində ilk dəfə olaraq dövlət büdcəsinin xərcləri 41 milyard manatı keçib. Əgər 2003-cü ildə respublikamızın 1,8 milyard dollar həcmində strateji valyuta ehtiyatları var idisə, indi bu rəqəm 72 milyard dollar həcmindədir. Azərbaycanın hərbi xərcləri 2003-cü ildə 255 milyon manat səviyyəsində idi. Bu il isə büdcəmizin müdafiə və təhlükəsizlik xərcləri 8,4 milyard manata çatıb.

Prezident İlham Əliyevin həm təşəbbüsləri, həm də qətiyyəti ilə Azərbaycana qlobal arenada böyük nüfuz gətirən, ölkəmizin regional və beynəlxalq mövqelərini daha da möhkəmləndirən enerji və nəqliyyat layihələri həyata keçirilib. Hələ 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin istifadəyə verilməsi ilə tarixdə ilk dəfə olaraq Azərbaycan neftinin alternativ yolla dünya bazarlarına çıxarılması təmin edilib.

Neft-qaz sahəsində qazandığı uğurları davam etdirən ölkəmiz Trans-Anadolu və Trans-Adriatik qaz kəmərlərinin çəkilməsinə start verib. İndi Azərbaycanın Xəzərdən hasil etdiyi təbii qaz 3 min kilometr məsafə qət edərək birbaşa Avropa bazarlarına çatır. Son illər Avropada baş verən iqtisadi problemlərin və Ukraynada müharibənin başlanmasının fonunda Prezident İlham Əliyevin nə qədər uzaqgörən enerji siyasəti həyata keçirdiyini təsdiq edir. Xəzərin



Azərbaycan sektorunda "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında yeni sazişin imzalanması ilə ölkəmizin dünya enerji sənayesində həlledici rol oynadığı bir daha təsdiqləndi.

Prezident İlham Əliyevin inkişaf strategiyasının daha bir göstəricisi olaraq Azərbaycanda nəqliyyat infrastrukturunun yenidən qurulması ölkəmizin dünyaya çıxışını daha da gücləndirib. Asiyanı Avropa ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin inşası İlham Əliyev qətiyyətinin növbəti təntənəsinə çevrildi.

Əlbəttə ki, dövlətimizin iqtisadi yüksəlişi paralel olaraq sosial sahədə də mütərəqqi tədbirlərin həyata keçirilməsinə imkan verib. 2003-cü ildə Azərbaycanda orta aylıq əməkhaqqı 76,8 manat təşkil edirdisə, bu gün orta aylıq əməkhaqqı 1 000 manatdan yüksəkdir. Ölkədə işsizlik və yoxsulluğun səviyyəsinin minimal səviyyədə olması iqtisadi inkişafın sosial sferaya gətirdiyi yüksək dividendlərdir. Təkcə 2018-2024-cü illərdə 4 milyondan çox vətəndaşı əhatə edən 4 sosial islahat paketinin icra olunması, bu dövrdə minimum pensiyada 2,5 dəfə, orta aylıq pensiyada 2,4 dəfə, müavinət və təqaüd ödənişlərində 5 dəfə, ünvanlı yardımın orta aylıq məbləğində 2,7 dəfə, minimum əməkhaqqında 2,7 dəfə, orta aylıq əməkhaqqında 2 dəfəyədək artımın olması bir daha göstərir ki, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Bu illər ərzində 3600 məktəb binasının, 40-dan çox olimpiya mərkəzinin və yüzlərlə müxtəlif idman qurğularının tikilməsi də mütərəqqi sosial siyasətin təqdirəlayiq nümunələridir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə keçdiyimiz inkişaf yolunu birmənalı şəkildə Azərbaycan səhiyyəsinin qızıl dövrü da adlandıra bilərik. Dövlət başçısının diqqət və qayğısının nəticəsində Azərbaycanın səhiyyə sistemində bu dövrdə bütün istiqamətlər üzrə islahatlar aparılmışdır. Son illərdə səhiyyəyə dövlət büdcəsindən ayrılan vəsaitlərin 30 dəfədən çox artırılması, ölkə üzrə 750-dən artıq tibb müəssisəsinin tikilməsi və ya əsaslı şəkildə təmir edilməsi həyata keçirilən səhiyyə siyasətinin əzəmətindən xəbər verir. Təqdirəlayiq haldır ki, ən mürəkkəb müayinə və müalicə üsullarını təkcə Bakıda deyil, bölgələrdəki xəstəxanalarda da həyata keçirmək mümkündür.

Səhiyyə infrastrukturunun ən müasir standartlar səviyyəsinə çatdırılmasının, tibb müəssisələrinin maddi-texniki bazasının təkmilləşdirilməsinin, təchizat və kadr hazırlığı ilə bağlı görülmüş işlərin bəhrəsini bu gün hər birimiz öz həyatımızda hiss edirik. Səhiyyənin inkişafına göstərilən diqqət və qayğının nəticəsidir ki, ana və uşaqlara, onkoloji, endokrinoloji, irsi qan xəstəliyi, böyrək çatışmazlığı olan və digər xəstələrə göstərilən tibbi xidmətin səviyyəsi xeyli yaxşılaşmış, ölüm hallarının sayı azalmış, icbari tibbi sığortanın tətbiqinə başlanılmışdır. Xüsusən özəl xəstəxanaların da icbari tibbi sığortaya cəlb edilməsi təqdirəlayiq hal kimi qiymətləndirilməlidir.

Səhiyyədə əldə edilən uğurlarda, bu sahədə dövlət proqramlarının reallaşdırılmasında, tibb ocaqlarının yenidən qurulmasında Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun müstəsna xidmətləri var. Fondun diabetli və talassemiyalı xəstələrin müalicəsinə verdiyi töhfələr, qanvermə aksiyalarını keçirməsi, ana və uşaqların sağlamlığının qorunması işinin yaxşılaşdırılması istiqamətində təşəbbüsləri cəmiyyətimiz tərəfindən təqdir edilir. Bütün bunlar respublikamızda reallaşdırılan dövlət siyasətinə layiqli töhfələr verir.

### Zəfərimizin müəllifi

Prezident İlham Əliyevin Azərbaycana rəhbərliyinin ən möhtəşəm hadisəsi torpaqlarımızın işğaldan azad edilməsi, bütün ərazilərimiz üzərində milli suverenliyimizin təmin olunmasıdır. Bu məqamda Prezident İlham Əliyevin 2003-cü ildə keçirilən andiçmə mərasimində söylədiyi bir fikri yada salmaq yerinə düşərdi. Həmin vaxt ilk dəfə Prezident kimi missiyasına başlayan cənab İlham Əliyev qətiyyətlə demişdir: "Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyon qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir".

Xalqımızın bu ağrılı probleminə son qoymaq üçün Prezident İlham Əliyev ilk gündən olduqca müdrik və uzaqgörən fəaliyyət həyata keçirdi. Bu gün dönüb tarixə nəzər salanda görürük ki, cənab Prezidentin həyata keçirdiyi bütün tədbirlərin mərkəzində həm də torpaqlarımızın işğaldan azad edilməsi dayanıb. Bu məqsəd həm xarici siyasətdə, həm inkişaf siyasətində özünü göstərib. Azərbaycanı inkişaf yoluna çıxarmaqla, ölkəmizin beynəlxalq münasibətlər sistemində yerini daha da möhkəmləndirməklə, o cümlədən qlobal müstəvidə hücum diplomatiyası yürüdərək erməni saxtakarlıqlarını ifşa etməklə Prezident İlham Əliyev həm də torpaqlarımızın işğaldan azad ediləcəyi tarixi yaxınlaşdırıb.

2020-ci ilin sentyabrında Ermənistanın növbəti hərbi təxribatlarından sonra başlanan Vətən müharibəsi, o cümlədən 2023-cü ilin sentyabrında həyata keçirilən antiterror tədbirləri Prezident İlham Əliyevin həyata keçirdiyi müdrik və qətiyyətli siyasətinin təntənəsi oldu. Bu zəfərlər, torpaqlarımızın işğaldan azad edilməsi, ərazilərimizdə erməni separatçılığına son qoyulması bir daha təsdiq etdi ki, güclü lideri olan xalq qarşısında dayanan bütün problemləri həll etməyə qadirdir. "Nəyi necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm" deyən Prezident İlham Əliyev sərkərdə qətiyyəti ilə torpaqlarımızı işğaldan azad etdi, Qarabağdakı erməni separatizminə son qoydu, üçrəngli bayrağımızı Füzulidə, Cəbrayılda, Zəngilanda, Hadrutda, Qubadlıda, Laçında, Kəlbəcərdə, Xankəndidə, Şuşada, Xocalıda, Ağdərədə dalğalandırdı. Bu hadisələr milli qürurumuzu ucaltdı, üstümüzdən məğlubiyyət damğasını götürdü. Beləliklə, son illərdə müxtəlif sahələrdə uğurları ilə tanınan Azərbaycan artıq həm də tarixinə hərbi zəfər həkk olunan dövlətdir.

### Azərbaycan yeni dövrdə də nailiyyətlərini davam etdirəcək

Bu gün artıq 22 ilin yüksəkliyindən keçdiyimiz yola baxarkən Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın tarixi qələbələrindən və misilsiz inkişaf uğurlarından böyük qürur və iftixar hissləri yaşayırıq. Dövlətimizin artmaqda davam edən qüdrəti, ölkəmizin dəyişən siması, Qarabağı azadlığa qovuşduran əzəmətli zəfər, Azərbaycanın və bölgənin həyatında baş verməkdə olan dərin proseslər Prezident İlham Əliyevin müstəsna uğurla həyata keçirdiyi tarixi missiyasının birbaşa təsdiqidir.

Ötən il fevralın 7-də keçirilən növbədənkənar prezident seçkilərində xalqımızın seçimini müəyyən edən amillər də məhz bu uğurlar, hadisələr idi. Bu seçkinin nəticəsi real əmələ və milli maraqlara söykənən siyasi kursun növbəti qələbəsi oldu. Prezident İlham Əliyevin bu seçkidə yenidən xalqın dərin etimadını qazanmasının əsasında Azərbaycanın yüksəlişi və dövlətimizin qarşısında dayanan vəzifələrin uğurla yerinə yetirilməsi, taleyüklü problemlərin həlli, respublikamızın milli maraqlarının qətiyyətlə təmin olunması dayandı. İlk dəfə olaraq məhz növbədənkənar prezident seçkilərində Qarabağ və Şərqi Zəngəzurda da səsvermə keçirildiyi üçün bu seçki həm də ərazi bütövlüyümüzün və suverenliyimizin təsbitini təsdiq edən mühüm siyasi hadisə oldu, tarixdə Zəfər seçkisi kimi qaldı.

2024-cü il fevralın 14-də isə azad, ədalətli və şəffaf şəraitdə layiqli qələbə qazanmış cənab İlham Əliyev Milli Məclisdə and içərək yeni mərhələdə respublikamıza rəhbərlik missiyasına başladı. Andiçmə mərasimində dərin məzmunlu və proqram xarakterli nitqində Prezident İlham Əliyev Azərbaycanın yüksəlişini təmin edən siyasətin yeni mərhələdə də layiqincə davam etdiriləcəyini bəyan etdi: "Əziz xalqımı bir daha əmin etmək istəyirəm ki, bundan sonra da Azərbaycanın hərtərəfli inkişafı, ərazi bütövlüyümüzün qorunması üçün əlimdən gələni əsirgəməyəcəyəm. İyirmi ildən çoxdur ki, Azərbaycan xalqı mənə öz dəstəyini göstərir. 2003-cü ildə ilk dəfə Prezident vəzifəsinə seçiləndə əziz xalqımı əmin etmişdim ki, qarşıda duran bütün vəzifələri icra etməyə, xalqın yüksək etimadını doğrultmağa çalışacağam. Bu illər uğurlarla dolu, qələbələrlə dolu illər olmuşdur. Çətinliklər də oldu, problemlər də oldu, ancaq Azərbaycan xalqı bir yumruq kimi birləşərək bütün çətinliklərə və problemlərə baxmayaraq, inkişaf və tərəqqi yolu ilə uğurla gedirdi. 2003-cü ildə verdiyim bütün vədlər yerinə yetirildi. Əldə edilmiş bütün nailiyyətlərin mənbəyi Azərbaycan xalqıdır, onun mənə göstərdiyi inam və onun vahid amal ətrafında birləşmə bacarığıdır".

Prezident İlham Əliyev hər cür pafosdan, populizmdən tamamilə uzaq, praqmatik, realist təfəkkürlü liderdir və onun elə bir vədi yoxdur ki, ötən illərdə reallaşmamış qalsın. Bu dövrdə həyata keçirilən islahatların real miqyası isə iki onilliyin çərçivəsini aşır. Məhz öz liderinin yüksək iradəsi, əzmi, qətiyyəti, idarəçilik keyfiyyətləri sayəsində Azərbaycan bu dövrdə həqiqətən inqilabi inkişaf yolu keçmiş, taleyüklü məsələlərin həllinə nail olmuş, torpaqlarını işğaldan azad etmişdir.

Ötən il Milli Məclisdə keçirilən andiçmə mərasimində Prezident İlham Əliyev əldə edilmiş nailiyyətləri xatırladtı, qarşıda duran vəzifələri diqqətə çatdırdı. Görünən odur ki, dövlət başçısının qarşıya qoyduğu hər bir vəzifənin hədəfi tarixin ən qüdrətli dövlətinə çevrilən Azərbaycanı daha da yüksəltmək, onu inkişaf etmiş dövlətlərin cərgəsinə çıxarmaqdır. Dövlət başçısının bu proqram xarakterli nitqi həm də növbəti 7 il üçün fəaliyyətinin yol xəritəsidir. Qarşımızda təkcə müzəffər deyil, həm də mütəfəkkir Ali Baş Komandanın dayandığını göstərən həmin çıxışda Prezident İlham Əliyev yeni milli ideyanın konturlarını müəyyən etdi.

Əminliklə söyləmək olar ki, cənab Prezidentin siyasi məharəti və səriştəsi, yaradıcı təfəkkürü və yenilməz əzmi dövlətimizin inkişafı naminə qarşıya qoyulan bütün hədəflərə çatmağa imkan yaradacaq. Ötən bir ildə Azərbaycanın iqtisadi həyatında baş verən irəliləyişlər, respublikamızın milli maraq və mənafelərinin təmin olunması yönündə əldə olunan nailiyyətlər, respublikamızın regionda və dünyada yüksələn nüfuzu təsdiq edir ki, cənab İlham Əliyevin andiçmə mərasimində toxunduğu hər bir məsələ sürətlə həyata vəsiqə alır.

*Azərbaycan özünün aydın yolu, müstəqil siyasəti olan dövlətdir və Prezident İlham Əliyevin rəhbərliyi ilə indiyə qədər qarşıya qoyulan bütün vəzifələrin yerinə yetirilməsi göstərir ki, Azərbaycan yeni dövrdə də öz məqsədlərinə inamla çatacaq, uğurlarını davam etdirəcək.*

***Əhliman ƏMİRASLANOV,***
***akademik, SSRİ Dövlət mükafatı laureatı***